MINISTRY OF DIGITAL DEVELOPMENT AND TRANSPORT OF THE REPUBLIC OF AZERBAIJAN
STATE CIVIL AVIATION AGENCY

SCAA-SB-004
Safety BULLETIN Conflict Zones

Mövzu: **Rusiya Federasiyasının hava məkanı**

Status:

Aktiv

Dərc olunma tarixi:

02/12/2025

Qüvvədə olma tarixi:

Yeni bülleten ilə qüvvədən düşməsi və ya düzəlişlər edilməsi tarixinə qədər

İstinad sənədləri və məlumatlar:

Təsirə məruz qalmış hava məkanlarının aviasiya üzrə səlahiyyətli qurumları tərəfindən dərc olunmuş aeronavtika nəşrləri, EASA nəşrləri, eləcə də DMAA tərəfindən həyata keçirilmiş risk dəyərləndirilməsi

Təsirə məruz qalmış hava məkanı:

RF-Moskva (UUWV), RF-Rostov-Don (URRV), RF-Sankt Peterburq (ULLL), RF-Yekaterinburq (USSV), Samara (UWWW).

Əhatə dairəsi:

“Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununa uyğun olaraq, Azərbaycan Respublikasında qeydiyyata və ya uçota alınmış hava gəmisi istismarçılarına şamil olunur.

Təsvir:

Son illər davam edən Rusiya-Ukrayna münaqişəsinin media və rəsmi məlumatlarının təhlili göstərir ki, rəsmi və müstəqil media mənbələrinin məlumatları arasında ciddi ziddiyyətlər yaranır. Bu ziddiyyətlər risklərin qiymətləndirilməsi prosesinin təhlilində əsaslı fərqlər yarada bilir.

Bunu nəzərə alaraq, faktiki vəziyyətin təhlili zamanı müəyyən olunmuşdur ki,

Rusiya ərazisində kütləvi pilotsuz uçuş aparatlarının (PUA) hücumları və bu PUA-larla mübarizə sistemləri mülki aviasiya üçün təhdidlər yaradır.

Rusiya və Ukrayna dövlətləri arasında aktiv hərbi əməliyyatlar davam etdiyi üçün həmin münaqişə birbaşa olaraq mülki aviasiya üçün təhlükə yaradır. Hərbi hava hücumları, zenit-raket sistemlərinin daim aktiv olması və tərəflərin istifadə etdiyi yeni tip hücum PUA-larının təxminən 1500 kilometr məsafəyə qədər uçma qabiliyyəti, həmçinin radio-elektron mübarizə sistemləri risk zonasını əhəmiyyətli dərəcədə genişləndirib. Bu o deməkdir ki, təhlükə yalnız sərhəd ətrafında deyil, ölkənin dərinliklərinə qədər uzanır və hər hansı mülki hava gəmisinin hədəf alınması riski mövcuddur.

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsi xatırladır ki, münaqişə zonaları üzərində və ya yaxınlığında uçuşlar həyata keçirilərkən hava gəmisinin istismarçıları Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) "Doc 10084, münaqişə zonalarının üzərində və ya yaxınlığında mülki hava gəmilərinin uçuş əməliyyatları üçün risk qiymətləndirmə təlimatı"nın tələblərini rəhbər tutaraq, Rusiya Federasiyasında müvafiq zonalara uçuşların planlaşdırılması zamanı marşrutların açılması, hər uçuşdan əvvəl, habelə başlanmış uçuşun münaqişə zonaları üzərində və yaxınlığındakı ərazilərdə risklərin azaldılması üzrə tədbirlər planına malik olmalı və bu plana riayət etməlidir. Bu sənədin tələblərinə əlavə olaraq, yeni tipli hibrid müharibə üsullarından biri sayılan radio elektron müharibə sistemlərinə aid əlavə risk qiymətləndirməsi aparılmalı və azaldıcı tədbirlər barəsində məlumatlar bütün əməliyyat iştirakçılarına çatdırılmalıdır.

Tövsiyələr

1. Hava gəmisi istismarçıları tərəfindən ICAO-nun "Doc 10084, münaqişə zonalarının üzərində və ya yaxınlığında mülki hava gəmilərinin uçuş əməliyyatları üçün risk qiymətləndirmə təlimatı"nın tələblərinə uyğun olaraq əməliyyatlara münasibətdə münaqişə zonaları ilə bağlı risklərin qiymətləndirməsinin mümkün aidiyyəti mənbələrdən, o cümlədən dövlət orqanları (qrumları) tərəfindən verilən məlumatlar əsasında həyata keçirilməsi təmin edilsin. Əgər dövlət orqanları (qurumları) tərəfindən uçuşa qadağa tətbiq edilərsə istismarçı tərəfindən həmin tələb icra edilməlidir.
2. Yeni təyinat məntəqələrinə uçuşlar planlaşdırıldığında, habelə əvvəllər uçuşlar həyata keçirilmiş və hazırda uçuş həyata keçirilməyən təyinat məntəqələrinə uçuşlar planlaşdırıldığında, təyinat məntəqəsi və uçuş marşrutları ilə əlaqədar təsirə məruz qalmış hava məkanı üçün münaqişə zonaları ilə bağlı 1-ci bənddə nəzərdə tutulan tələblər nəzərə alınmaqla əməliyyat risklərinin qiymətləndirilməsi həyata keçirilsin.
3. Təsirə məruz qalmış hava məkanında yerləşən hər bir təyinat məntəqəsinə uçuş həyata keçirilməzdən əvvəl münaqişə zonaları ilə bağlı mümkün mənbələrdən əldə edilmiş məlumatlar əsasında spesifik əməliyyat risklərinin qiymətləndirilməsi həyata keçirilsin.
4. Münaqişə zonaları və ya yaxın ərazilərə yerinə yetirilən uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə əməliyyat risklərinin azaldılmasına dair tədbirlər planları hazırlansın və onların icrası təmin edilsin.
5. Təsirə məruz qalmış ərazilər barəsində məhdudiyyət, qadağa və təhlükə zonası bəyan olunmuş hava məkanı hissələrində bütün məhdudiyyətlər götürüldükdən sonra da, istinad olunan ICAO sənədinə uyğun risk qiymətləndirilməsinin hava gəmisi istismarçıları tərəfindən həyata keçirilməsi davam etdirilsin. Müvafiq risk

qiymətləndirilməsi hava gəmisi istismarçıları tərəfindən həmin zonaların riskli zona təsnifatından çıxarılanadək davam etdirilsin.

6. Təsirə məruz qalan hava məkanına münasibətdə istismarçılar daimi əsasla mülki aviasiya uçuşlarına aviasiya və uçuşların təhlükəsizliyi ilə bağlı riskləri (habelə qadağan olunmuş, məhdudiyyət tətbiq edilmiş və ya təhlükəli zona elan edilmiş ərazilər barəsində məlumatlar da daxil olmaqla) müxtəlif mənbələrdən istifadə etməklə nəzarətdə saxlasın və operativ (o cümlədən uçuşların dayandırılması ilə bağlı) qərarların qəbul edilməsini təmin etsin.
7. Münaqişə zonalarına və ya yaxınlığına uçuşlarla bağlı yarana biləcək fövqəladə uçuş vəziyyətləri ilə əlaqədar məsələlərin uçuş heyətinin təlim proqramına, habelə istismarçıların əməliyyat təlimatlarına daxil edilməsi təmin edilsin.
8. GNSS müdaxilə halları ilə bağlı məlumatların münaqişə zonaları və yaxınlığında olan hava məkanları ilə əlaqədar həyata keçirilən risk qiymətləndirilməsi prosesində nəzərə alınması təmin edilsin.

AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ
NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA
AGENTLİYİ